# Ədəbiyyatımızın vicdanı

**Xalq yazıçısı, dramaturq, ədəbiyyatşünas alim, tənqidçi, ictimai xadim, Dövlət mükafatı laureatı Mehdi Hüseynin 100 illik yubileyinin layiqincə qeyd olunması istiqamətində ciddi işlər görülmüş, Bakı şəhərində və bölgələrdə adibə həsr edilmiş silsilə tədbirlər həyata keçirilmişdir.**



Mehdi Hüseyn-100

Mehdi Hüseyn Azərbaycan ədəbiyyatının vicdanı olmaqla yanaşı, həm də onun cəfakeşi, qayğıkeşi, fədaisi idi. XX əsrdə Azərbaycan nəsrinin təməli Mehdi Hüseyn tərəfindən qoyulmuş, inkişaf etdirilmiş və ən yüksək zirvəyə çatdırılmışdır.

Onun əsərləri dünya xalqlarının dillərinə tərcümə olunmuşdur. Xalq yazıçısı Mehdi Hüseynin 100 illik yubileyi ədibin doğulub boya-başa çatdığı Qazaxda da təntənəli şəkildə qeyd olundu. Yubiley tədbiri Qazax Rayon Mədəniyyət Sarayında keçirilmişdir. Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rauf Hüseynov tədbiri giriş sözü ilə açaraq Mehdi Hüseynin Azərbaycan ədəbiyyatındakı tarixi xidmətlərindən danışmışdır.

Azərbaycan Yazıçılar Birliyi Qazax filialının sədri, şair Barat Vüsal Mehdi Hüseynin həyat və yaradıcılığı barədə toplantı iştirakçılarına ətraflı məlumat verdi. Xalq yazıçısı, əməkdar incəsənət xadimi, prezident təqaüdçüsü Vidadi Babanlı, yazıçılardan Nahid Hacızadə, Salatın Əhmədli, Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı, filologiya elmləri namizədi, ədəbiyyatşünas-alim Rüstəm Kamal, şairlərdən İlyas Tapdıq, Bilal Qoca, Tofiq Saleh, Gürcüstan Aşıqlar Birliyinin sədri Osman Əhmədoğlu Mehdi Hüseynin Azərbaycan ədəbiyyatındakı xidmətlərindən söz açaraq onun qısa ömür kəsiyində ədəbiyyatımız üçün gördüyü böyük və xeyirxah işlərdən danışmışlar. Yubiley tədbirində kövrək xatirələr dilə gəlmiş, Mehdi Hüseynə həsr olunmuş şeirlər səsləndirilmişdir.

Sonra söz musiqiyə verilmişdir. Fikrət Əmirovun yazıçının "Cavanşir" əsərindən "Reyhan" şeirinə bəstələdiyi mahnı ifa olunmuşdur.

Rayon özfəaliyyət kollektivinin üzvü Humay Qədimovanın oxuduğu mahnı tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılandı.Əməkdar mədəniyyət işçisi Aşıq Hacı Abdullayev, Aşıq Hacı Abdıyev və Aşıq Camay Qurbanovun ifasında səslənən aşıq mahnıları da qəlbləri riqqətə gətirdi.

Akademik Teymur Bünyadov Mehdi Hüseynin anadan olmasının 100 illik yubileyinin belə yüksək səviyyədə keçirilməsinə görə yazıçının ailə üzvləri- oğlu Əlinin, qızı Zivər xanımın adından cənab prezidentə, Rayon İcra Hakimiyyətinin başçısı Rauf Hüseynova, yubiley iştirakçılarına öz dərin minnətdarlığını bildirdi.

Tədbirin sonunda Qazax Dövlət Dram Teatrı aktyorlarının M.Hüseynin "Alov" pyesindən göstərdikləri parça yubiley iştirakçılarının ürəyincə olmuşdur.

**• Kazım KAZIMLI**